# “Savaşdan barışa”

## Şanlı Çanaqqala zəfəri Bakıda anıldı





**”Tarixin ən qanlı bölümü sayılan Çanaqqala döyüşü türk millətinin qürur duyduğu dönüş nöqtələrindən biridir. 18 Mart - Çanaqqala zəfəri türkün müstəqilliyini və torpaqlarını qorumaq üçün savaşdığı döyüşdür”. Çanaqqala zəfərinin 100 illiyi ilə bağlı Azərbaycan İstiqlal Muzeyində keçirilən tədbirdə səslənən bu fikirlər türk xalqının tarixinin şərəfli bir səhifəsini iştirakçılar üçün vərəqlədi.**

Türkiyənin Azərbaycandakı səfirliyinin nümayəndələri, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları, Azərbaycanda Atatürk Mərkəzinin və Yunus İmrə İnstitutu Türk Mədəniyyət Mərkəzinin nümayəndələri, Prezident Qvardiyası və Daxili Qoşunların əsgərləri və digər qonaqların iştirak etdiyi mərasimdə qeyd edildi ki, Çanaqqala döyüşü Birinci Dünya müharibəsində Osmanlı dövləti ilə Antanta dövlətləri arasında baş verən dəniz və quru döyüşüdür. Çanaqqala döyüşləri əsrimizin ən böyük döyüşlərindən biridir. Birinci Dünya müharibəsini qalib şəkildə bitirmək istəyən düşmən dövlətləri Çanaqqala boğazını keçib İstanbulu almaq istəyirdilər. Osmanlı ordusu ingilis və fransız donanmalarına qarşı Çanaqqala boğazında aylarla sürən silsilə dəniz və quru döyüşləri apardı. 250000 türk əsgərinin şəhid olduğu bu döyüşlərin nəticəsində düşmən donanmaları ağır itkilər verərək geri çəkiliblər. Çanaqqala döyüşlərində Azərbaycandan da çoxsaylı insan döyüşərək həlak olub. Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün - 18 mart Çanaqqala şəhidlərini Anma günü olaraq elan edilib.



Bu döyüş 1915-ci ildə türk dünyasının görkəmli öndəri Mustafa Kamal Paşanın başçılığı ilə Antanta birliyi kimi güclü donanmaya malik dövlətlərlə qeyri-bərabər döyüşlərdən qalib çıxmış türk əsgərinin nəyə qadir olduğunu bütün dünyaya bir daha sübut edib.

**Azərbaycan İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi** tədbiri açaraq, Çanaqqala savaşının ən çox danışılan mövzu olduğunu qeyd etdi. Belə ki, Çanaqqala savaşı Türkiyənin müstəqilliyi uğrunda aparılan döyüşlərin kulminasiya nöqtəsi olub: ”Bu döyüşdə çoxlu azərbaycanlılar da iştirak edərək şəhid olublar. Amma təəssüf ki, həm Azərbaycan, həm də Türkiyə ictimaiyyəti həmin qəhrəman qazilərimiz və şəhidlərimiz barədə çox az məlumatlıdırlar”.

Direktor xatırlatdı ki, 2015-ci il yanvarın 15-də Prezident İlham Əliyev Türkiyəyə səfəri zamanı ölkəmizin Çanaqqala zəfərini Türkiyə Cümhuriyyəti ilə birlikdə aprel ayında qeyd edəcəyini bəyan edib.

**Yunus İmrə İnstitutu Türk Mədəniyyət Mərkəzinin müdiri Əli Cura** rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışaraq, türk və qeyri-türk dövlətləri arasında mədəni körpülər qurduqlarını, Türkiyənin mədəniyyətini, tarixini, ədəbiyyatını dünyanın hər yerində ifadə etdiklərini bildirdi: ”Ortaq türk təməlinə dayanaraq, tarixi-mədəni əlaqələrimizi Azərbaycanda da həyata keçiririk. Bu məqsədlə Azərbaycandan gələn əsgərlər də Çanaqqalada vuruşublar. Türk və Azərbaycan əsgərləri tarixin o dönəmində insani yaxınlaşmaları ilə qəhrəmanlıq sərgiləyiblər. Əslində onların münasibəti savaşın dostluğa və barışa çevrilməsinə vəsilə olub”. Ə.Cura bildirib ki, sərgidə yer alan fotolar təkcə Çanaqqala zəfərinin hərbi nəticəsi deyil, həmçinin orada döyüşən türk əsgərlərinin qardaşlığının zəfərinin nəticəsidir.

**Azərbaycanda Atatürk Mərkəzinin İctimai-siyasi şöbəsinin müdiri Əkbər Qoşalı** Çanaqqala zəfərinin ildönümünə təsadüf edən günlərdə dünya katoliklərinin liderinin - Roma Papasının məlum açıqlamasına toxunub: ”Görünür, dünya katoliklərinin liderinin simasında bir çox liderlər hələ də öz dərslərini ala bilməyiblər. Onlar öz dövlətini qoruma haqqını anlamaqda hələ də çətinlik çəkirlər. Ancaq neçə illər keçsə də, dünyada əbədi olaraq Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və digər türk xalqları qalacaq”.

Ə.Qoşalı qeyd etdi ki, türk xalqlarının qardaşlığı, birliyi ilə bağlı inamlardan biri də Çanaqqala zəfəridir: ”Türkiyənin zəfər gününü Azərbaycanın da zəfər günü kimi dəyərləndirirəm. Bu zəfər torpağı sevmək, öz torpağını qorumaq və onun uğrunda döyüşərək əldə saxlamağın bariz nümunəsidir. Azərbaycanlıların türk ordusu sıralarında müxtəlif cəbhələrdə, o cümlədən Çanaqqalada döyüşmələri təsdiq edir ki, hətta müstəqil dövlətləri olmadığı və çarizm zülmü altında olduqları bir zamanda azərbaycanlılar həm ruhən, həm də fəaliyyətləri ilə türk qardaşlarının yanında olmuş, onların müharibədə məğlub olmasını istəməmiş, qanları ilə Türkiyə uğrunda döyüşmüşlər”.

”Biz bu savaşı yad edərkən şərəf tariximiz kimi yad edirik. Bu, qəhrəmanlıq dastanıdır. Yüz il sonra Çanaqqala döyüşünün ildönümünü qeyd edirik və öz şanlı tariximizlə qürur duyuruq. Qardaş Azərbaycanda bu sevinci paylaşmaqdan məmnunuq”. Bu sözləri deyən **Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səlahiyyətli səfiri İsmayıl Alpər Coşqun** bildirdi ki, Çanaqqala döyüşündən alınan dərs təkcə hərbi nəticə deyil, torpaqlarımızı sevmək və onu əldə saxlamaq haqqıdır: ”Türkiyənin keçdiyi yolla digər ölkələrin keçdiyi yola baxdıqda nə qədər böyük fərq olduğunu görürük. Çanaqqala döyüşünün 100-cü ildönümünü qeyd etməklə dünyaya sülh mesajları vermək istəyirik. İnsani dəyərlərə daha çox önəm verildiyi bir zamanda nifrətə qarşı çıxmaq üçün bu mesaj çox vacibdir. Biz Azərbaycanla birlikdə sülh tərəfdarıyıq və hər zaman dünyaya sülh mesajı vermişik”.

Səfir ölkələrimiz arasında münasibətlərin həmişə yüksək səviyyədə olduğunu və bu münasibətlərin daha da möhkəmlənəcəyini vurğuladı: ”Bu gün də bir millət iki dövlət olaraq Azərbaycanın bizə verdiyi güclə yolumuza davam edirik”. Bu gün Azərbaycanın torpaqlarının da işğal altında olduğunu xatırladan səfir: ”Biz Türkiyə və Azərbaycan olaraq sülh və barış mesajları verməkdə davam edəcəyik və haqqımızın və şanlı tariximizin əlimizdən qəsb edilməsinə əsla izn verməyəcəyik”,- deyə bildirdi.

Tədbir çərçivəsində muzeyin ekspozisiyasında təşkil olunan Çanaqqala zəfərinin 100 illiyi ilə əlaqədar ”Savaşdan barışa” adlı foto-sərgiyə baxış keçirildi. Qeyd edildi ki, sərgidə nümayiş olunan və Çanaqqala zəfərini əks etdirən 45 ədəd fotoşəkil Türkiyə Xarici İşlər Nazirliyinin və ölkənin digər arxivlərindən təqdim edilib.

**Təranə Məhərrəmova**